

# Hanı bizim toylarımız?!...

*Toy hər bir insanın həyatında yeni mərhələnin başlanğıcıdır. Toy birgə nikaha girib ailə quran gənclərin yeni həyatının ilk günüdür. Toy min illər boyu xalqın qorunub saxlanan ən mühüm adət-ənənələrindən birinin təntənəsidir. Toy bir ailənin, bir evin və onlara qoşulan qohumların, qonşuların, dostların şadlıq günüdür. Müxtəlif bölgələrdə bu adət-ənənəni bir-birinə nisbətən fərqli qeyd etsələr də, məzmun və məna cəhətdən toylar eyni cür olmuşlar: İnsan həyatının yeni mərhələsinin əsil səcərəsinin davam etdirilməsinə başlanan yeni günü sevinc, şadlıq və təmtəraqla qeyd etmək.*

Xalqımızın adət-ənənələrinə diqqətlə nəzər yetirdikdə görürük ki, toya hazırlıq körpə dünyaya göz açan gündən başlanır. Evlərimizdə uşaqlar həmişə sevilib, əzizlənib və babalar, nənələr, əmilər, dayılar, bibilər, xalalar və dostlar körpələrə bu məhəbbəti toy günü arzulamaqla ifadə ediblər: "toy gününü görüm", "toy gününə qurban olum", "toy plovunu yeyim" və s.

Nağıl və dastanlarımızda toyların müddəti haqqında oxuyuruq: "qırx gün, qırx gecə toy oldu", "yeddi gün yeddi gecə toy oldu", "üç gün, üç gecə toy oldu"... və s. Görünür, insanlığın təşəkkülünün ilkin mərhələsində, kənar informasiyaların az olduğu dövrlərdə toyların davam müddəti indikindən xeyli çox olmuşdur. Əlbəttə, burada toy sahibinin maddi imkanları, toyu idarə edən aşıq və digər musiqiçilərin sənətkarlıq baxımından xalq arasında hörmət və nüfuzu həlledici amil sayılmışdır. Toy məclisləri şadlıq, şadyanalıq məqsədilə qurulsa da, cəmiyyətin birgəyaşayış qaydalarına görə gənclərin mənəvi tərbiyəsi belə yığıncaqlarda həmişə öndə durmuşdur. Toy mağarında hər kəs yerini tanımış, ağsaqqala, özündən böyüyə hörmət etməyi özünə borc bilmişdir. Xalq aşığının oxuduğu ustadnamələr, söylədiyi nağıl və dastanlar insanlar üçün tərbiyəvi məktəb rolunu oynamış, onları həyat haqqında dərindən düşünməyə sövq etmiş, paklıq dünyasına qovuşdurmuşdur.

Kişi və qadın toyları davam etmə müddətinə, məzmun və formasına görə həmişə bir-birindən fərqlənmişlər. Qız toyuna hazırlıq müəyyən müddət davam etsə də, onun keçirilməsi əksərən bir gün ərzidə başa çatdırılardı. Ötən əsrin 80-ci illərinə qədər kəndlərimizdə qadın toylarına kənardan musiqiçilər çağırılmamış, məclisi bədahətən söz söyləmək imkanları olan qadınlar, gəlinlər və qızlar idarə etmişlər. Toya bir ay qalmış işdən sonra axşamlar qadınlar qız evinə yığışar, məşqə başlardılar. Əllərində dəf qabaq-qabağa dayanan dörd qadın (hər tərəfdə iki nəfər) növbə ilə mahnı oxuyar, bəhsləşərdilər. Çox vaxt oğlan tərəfinin cavan qadın və qızları da qız evinə gələr, şənliklərdə iştirak edərdilər. Məsələn, oğlana qohum olan qadınların oxuduğu qafiyələrdən biri belə idi:

***Yaxşı bəzək vurun bizim gəlinə, gəlinə,***
***Mirvarini düzün onun telinə,telinə.***

Qarşı tərəf də bu beytə uyğun qafiyə tapır, şənliyi davam etdirirdilər. Toy günündə musiqi aləti kimi ancaq dəfdən istifadə olunar, qadınlar ürəyəyatımlı mahnı oxuyar, məclis əhlini şənləndirərdilər. Onu da qeyd edək ki, qız toyunda şənliyi təşkil edən, onu aparanlara heç vaxt haqq ödənilməzdi. Çünki həmin adamların hamısı yaxınlar və doğmalar idi. Bir ailənin sevinci hamının sevinci, şadlığı hesab olunurdu.

Oğlan toyları 70-ci illərə qədər üç gün davam edərdi. Birinci gün axşam ağsaqqallar, qohumlar, yaxın qonşular oğlan evinə yığışar, məclisi yola vermək üçün plan hazırlayar, kimin nə işlə məşğul olacağını müəyyənləşdirərdilər. İkinci gün musiqiçilər və qonşu kəndlərdən toya dəvət olunanlar gələrdi və məclis qurulardı. Əlbəttə, yaxın qohumlar və dostlar toyun əvvəlindən axırınacan iştirak edərdilər. Üçüncü gün bütün kənd camaatı məclisə yığışardı və toy bəy tərifi ilə başa çatardı.

Xeyir iş sahiblərinə maddi və mənəvi cəhətdən kömək göstərmək, yardım etmək xalqımızın ən gözəl adətlərindən, ən yaxşı insani sifətlərindən biridir. Toy məclisinə içi şirniyyatla dolu qırmızı örtüklü xonça gətirilər, ağsaqqalın qabağına qoyulardı. Ağsaqqal cibindən pul çıxarıb xonçaya atardı. Sonra isə ca-

van oğlanlardan biri nəlbəkiyə şirniyyatdan qoyub sağdan sola bir-bir adamlara yaxınlaşdırardı. Hər kəs nəlbəkidən konfet götürər və xələti ni (pulu) ora qoyardı. Cavan oğlan pulun miqdarını ucadan bildirərdi: - Kərim kişi 10 manat.

Xonçanın başında oturan ağsaqqal ucadan (çox vaxt qonşu kənddən gur səsi olan Əzizxan kişi) deyərdi: - Evi abad olsun! Oğlu, qızı üçün olsun! Toyda siyahı yazılmazdı. Hər kəs imkanına görə pul atardı. (İndiki kimi borca borc deyildi). Qohumlar xeyir məclisinə qoç, cöngə gətirər, gəlinə zinət əşyaları alardılar. Bəziləri niyyət etdiklərinə görə toyda pul yığmazdılar. Məsələn, 50-ci illərdə kəndimizdə (Lerik rayonu, Anzolu kəndi) Xannəzər kişi oğlu Muxtara pulsuz toy eləmişdi. Yaşlı adamlar indi də bu barədə həvəslə danışırlar. Məclisdə hamıya yaxşı qulluq göstərilərdi. Əvvəlcə pürrəngi çay, sonra isə plov və yanında qəylə (Bakıda buna qara deyirlər) verilərdi. Kəndimizdə və qonşu obalarda heç vaxt açıq şəkildə halal süfrəyə ulu Tanrının haram buyurduğu spirtli içkilər qoyulmayıb.

Musiqi insan ruhunun qidasıdır. Şənlik məclisinə yığışanlar musiqiyə qulaq asmağı, həzz almağı hər şeydən üstün hesab etmişlər. Ona görə də maddi imkanına görə hər bir şəxs xeyir məclisinə daha bacarıqlı musiqiçiləri dəvət etməyə çalışmışdır. Yaxşı yadımdadır. Altıncı sinifdə oxuyurdum. Payızın əvvəli idi. Muxtar kişi kiçik qardaşına toy eləyirdi. Toya Astaradan aşıq Ağalını çağırmışdı. İfaçı aşıq olan bu sənətkar ustadnamələr söyləyir, məclisdə gəzişirdi. Sonra aşıq Ələsgərdən oxudu. Məclis əhli diqqətlə qulaq asırdı.

Sonralar Azərbaycanın çox aşıqlarını rayonumuzun kəndlərinə toylara çağırdılar, hərəsi də şəxsi fitri xüsusiyyətləri ilə yaddaşlara köçdü. 70-ci illərdə qonşu Çayrud kəndindən aşıq Nəriman da ifaçı sənətkar kimi bu qədim peşənin sirlərini dərindən öyrəndi, uzun illər Lerikdə və qonşu rayonlarda toy məclislərini yola verdi, xalqın hörmət və etimadını qazandı. Çayrud musiqi məktəbinin direktoru kimi o bu gün də rayonda keçirilən dövlət tədbirlərində çox fəal iştirak edir.

Buraya qədər qeyd etdiklərimiz ötən əsrin 50-90-cı illərində keçirilən toy məclisləri barədə bəzi məqamlar idi. Lakin əsas məqsədimiz müasir toylarımız haqqında fikirlərimizi oxucularla bölüşməkdir. İnsan yaşayışı ilə bağlı hər hansı tədbirin həyata keçirilməsinin maddi və mənəvi tərəfləri olur. Maddi baxımdan hər bir şəxs görəcəyi işlər barədə fikirləşəndə ilk növbədə mövcud imkanlarını nəzərdən keçirir və ona uyğun hərəkət etməyə çalışır. Həddi-buluğa çatmış övladını evləndirmək, ailə sahibi etmək hər bir şəxsin valideynlik borcudur. Hamı istəyir ki, övladına yaxşı toy etsin, təmtəraqlı məclis qursun. Müasir toyların əksəriyyəti şadlıq saraylarında keçirilir. Etiraf edək ki, bir çoxlarının maddi durumu şadlıq saraylarında toy eləməyə imkan vermir. Lakin məcburiyyət üzündən toy eləmək üçün restoranlara üz tutanlardan bəzilərinin xeyir işi son nəticədə qanqaraçılıqla qurtarır. Çünki yığılan pul restoranın xərcini ödəmir, toy sahibi borca düşür, sonralar borcun ödənilməsi yeni qurulan ailə üçün problemə çevrilir. Şadlıq saraylarının bir nəfər üçün tələbi (15 manatla 50 manat arasındadır, bəzilərində bir az da çox) əhalinin kasıb təbəqəsinin maddi durumuna uyğun gəlmir. Əgər bir şəxs ildə qohum-əqrəba, dost-tanış, qonşu və s. də daxil olmaqla 15-20 toyda iştirak edirsə, bunun üçün minimum məbləğdə, yəni ən azı 400-500 manat pul lazımdır. Hələ onu demirik ki, toyda 20 manat pul yazdıran özünü təhqir olunmuş hesab edir, çünki əksər hallarda bir nəfər üçün hesablanan qiymət 20 manatdan yuxarı olur.

İndi isə toyun gedişi ilə bağlı şəxsi müşahidələrimiz əsasında bəzi məqamlara aydınlıq gətirməyə çalışaq. Toylar əsasən axşam saat 600 - dan 1200 - yə qədər davam edir. Qonaqlar şadlıq sarayına daxil olanda üzərində müxtəlif cür yeməklər, meyvələr, şirələr, sular və spirtli içkilər düzülmüş stollar hazır olur. Menyuda 30-40, bəzən bir az da çox yemək və içki növü olur. Artıq stolun üstündə bir şey qoymağa yer yoxdur. Xidmətçilər isə dalbadal daşıyırlar. Normal düşüncə sahibi olan hər kəs məclisdəki israfçılıq barədə fikirləşir. Görəsən, bu qədər yemək kimə nə üçün lazımdır?! Adam bir dəfəyə nə qədər yemək yeyə bilər?! Nə tibbi-bioloji, nə də insanlıq baxımından qısa vaxt ərzində bu qədər yeməyin qəbulu xəstəlik və tərbiyəsizlikdən başqa bir şey deyildir. Ancaq çoxlarımızın iştirak etdiyi toylarda vəziyyət belədir. Əlbəttə, nəfsinin quluna çevrilənlər yedikcə yeyir, içdikcə içir, sonra da piylənir və xəstələnirlər.

Plov tarixən evlərimizdə də, məclislərimizdə də süfrələrimizin bəzəyi, xörəklərimizin şahı hesab olunub. Lakin müasir toylarda bu gözəl nemətə, bu ləziz təama qarşı bir etinasızlıq vardır. Axşam saat 1000 - dan sonra təmtəraqla məclisə gətirilən plova heç kim əlini uzatmır. Çünki yeyən yemiş, doyan doymuşdur. Toyun bu vədəsində ağır və qiymətli yeməyin gətirilməsi israfçılıqdan başqa bir şey deyildir.

Tarixən toy məclisləri aşıqların, xanəndələrin və digər musiqiçilərin sınaq meydanı olmuşdur. İllərlə zəhmət çəkib musiqinin incəliklərini öyrənənlər, fitri istedadları ilə aşıqlıq və xanəndəliyin gizli sirlərinə bələd olanlar şadlıq məclislərində xalqın ruhunu oxşamış, ecazkar ifaları, sənətləri ilə dinləyicilərin hörmət və məhəbbətini qazanmışlar. Bu gün də, şadlıq məclislərində, toyxanalarda əsl sənətkarlarla rastlaşanda onların ifalarından həzz alırıq, məmnun oluruq. Təəssüf ki, şadlıq evlərində keçirilən toylarda çox vaxt qulaqbatırıcı elektrik avadanlıqlarının hesabına çığır-bağır salan naşı musiqiçilərlə rastlaşırıq və toy sahibinin hörmətinə müəyyən müddət məcburən onlara qulaq asmalı oluruq. Hay-küy, çığır-bağır, qulaqbatırıcı gurultulu səslər sağlamlığımıza ziyan vurur, zövqümüzü korlayır, toydan sonra bir həftə özümüzə gələ bilmirik.

Oynamaq toy məclisinin yaraşığıdır. Yaxın qohumlar, qonşular, dostlar, tanışlar həmişə toyda oynamış, şən, oynaq rəqsləri ilə şadlıq məclisinə təravət, gözəllik bəxş etmişlər. Tamaşaçılar həmişə bundan zövq almışlar. Ancaq heç vaxt hamı rəqs etməyi bacarmamışdır. El məsəlində deyilir: "Utanmasan, oynamağa nə var ki?!" Doğrudan da, bəziləri uşaq yaşlarından utanmış, çəkinmiş, oynamağı öyrənə bilməmişlər. Burada heç bir qəbahət yoxdur. Çünki oynaya bilmədiyinə görə oynamır. Oynayanlar isə öyrəndikləri musiqi havasının ritminə uyğun rəqs etmişlər. Bugünkü toylarımızda isə çox qəribə vəziyyət yaranıb. Demək olar ki, çalınan hər bir rəqs havasına hamı oynayır, bilsələr də, bilməsələr də. Əvvəllər ancaq "Yallı" rəqsinə kolektiv şəkildə oynamışlar. ?ndi isə bütün oyun havalarına hamı birgə "rəqs edir". Bir də görürsən ki, 100-150 nəfər meydanda "haray-həşir qoparır".

İki il əvvəlin söhbətidir. Bakının möhtəşəm şadlıq saraylarından birində həmkəndlilərimizdən birinin oğlunun toyu idi. Bəyin atası oynayırdı. Tay-tuşları ona qoşulmuşdu. Yaşı 60-ı haqlamış, şəxsiyyətinə böyük hörmət bəslədiyim ziyalılardan biri onlara qoşulmuşdu və atlanıb-düşürdü. Toydan sonra qəlbinə dəyməmək üçün ehtiyatla ona yanaşıb soruşdum:

- İndiyə kimi rəqs etməyinizi görməmişdim. Nə əcəb sizdən?!

Cavabında eşitdim:

- Toydan sonra hamı videokasetə baxır, oynamasan olmur, ona görə mən də yavaş-yavaş öyrənirəm.

Daxilən xəcalət hissi məni bürüdü və bu anda yadıma məşhur atalar sözü düşdü: "Qırxında öyrənən, ..." və bir də xəyalımda C.Məmmədquluzadənin "Qurbanəli bəy" hekayəsindəki Kəblə Qasım canlandı. Bu nurani şəxs, Qurbanəli bəyin təhqirlərinə dözdü, ancaq oynamağı bacarmadığına görə meydana girmədi.

Təəssüf hissi ilə qeyd etməliyəm ki, hər dəfə qohumlardan, tanışlardan dəvətnamə alanda milli toy görmək arzusu ilə evdən çıxıram. Ancaq hələ ki, son illərdə belə toylarla rastlaşmamışam. Müasir toylar barədə rəy öyrənmək məqsədilə fərdi qaydada bir çoxlarına müraciət etmişəm. Əksəriyyəti toyların təşkili və keçirilməsi formalarından narazıdır. Bəziləri şadlıq məclislərinin bu cür təşkil olunmasını qloballaşma və Avropaya inteqrasiya ilə əlaqələndirir, bir qismi isə bunu cəmiyyətdə təbəqələşmə ilə bağlayır. Bütün hallarda toylarımız milli zəmindən uzaqlaşmaqdadır. Bu barədə fikirlərini öyrəndiyim bəzi ziyalıların dedikləri də oxucular üçün maraqlı olar.

**Həkim Əfrail Ağayev:** - Şadlıq saraylarında stollara külli miqdarda və müxtəlif çeşiddə yeməklərin düzülməsini ancaq israfçılıq adlandırmaq olar. Normal insan orqanizmi normadan çox-çox artıq olan ərzağın qəbulu iqtidarında deyildir. Ən yaxşı halda həmin yeməklərin 10-15 faizini təmiz və keyfiyyətli şəkildə qonaqlara təklif etsələr, kifayətdir.

**Pedaqoji elmlər namizədi, Bakı Slavyan Universitetinin müəllimi Akif Məmmədov:** - Süfrə mədəniyyətini qorumaq, uca Tanrının bizə bəxş etdiyi nemətlərdən qənaətlə və səmərəli istifadə bizim insanlıq borcumuzdur. Bu baxımdan toy məclislərindəki israfçılığa barışmaq olmaz. Toy iki gəncin, iki ailənin şadlıq və sevinc günüdür. Onların sevincinə qoşulub şadlıq məclisinə gələn hər bir şəxs valideynlərə gözaydınlığı verir, ailə quran gənclərə xoşbəxtlik arzulayır. Lakin bunu kolxoz iclasları səviyyəsinə qaldırmağa heç bir lüzum yoxdur. Bəziləri mikrofonu əlinə alıb yarım saat bəyin (və ya gəlinin) atasını, babasını, bütün nəslini tərifləməyə başlayır. Məncə, məclisdəkilərin heç birinin belə çıxışlardan xoşu gəlmir.

**Şair Ağacəfər Həsənli:** - Toy məclislərini rövnəqləndirən, çağırılan qonaqların ruhunu oxşayan, onlarda şən ovqatı təmin edən ilk növbədə gözəl musiqi nömrələridir. Şadlıq saraylarında isə ən çox bayağı, saxta musiqilərə yer verilir, dinləyicilərin zövqü korlanır, onların səhhətinə ziyan vurulur. Elektrik avadanlıqları vasitəsilə yaradılan güclü səs-küyə musiqi deməyə adamın dili gəlmir. Yaxşı olar ki, şadlıq məclisinin ruhuna uyğun mahnılar səslənsin, əsrlərin sınağından çıxmış toy adətlərimiz unudulmasın.

Həyat daima inkişafdadır. Hər bir inkişaf, hər bir yüksəliş insan mənəviyyatının kamilləşməsinə, milli adət-ənənələrin qorunub saxlanmasına, daha da möhkəmlənməsinə xidmət etməlidir. Çünki ancaq bu yolla mənəvi sərvətlərimiz yabançı ünsürlərin təsiri altına düşməz və gələcək nəsillərə ötürülər. Hər birimiz yaşadığımız cəmiyyətin üzvüyük və üzərimizə müəyyən əxlaqi məsuliyyət düşür. Baş verən hadisələrə biganəlik göstərmək vətəndaş məsuliyyətindən yaxa qurtarmaq, kənarda qalmaq deməkdir.

Qeyd etdiklərimiz milli toy adətlərimizi yaşatmaq naminə qələmə alınmışdır. Məqalənin həcmi imkan vermədiyindən müəllifin subyektiv fikirlərinin bir qismi yazıda öz əksini tapmışdır. Arzumuz budur ki, geniş oxucu kütləsi qeyd olunanlara münasibət göstərsin. Gün o gün olsun ki, sevinə-sevinə toylara gedək, oradan yaxşı əhvali-ruhiyyə ilə qayıdaq və xoş, pak hisslərin təsiri altında yaşayaq.

**Bayram ASLANOV,**
**zona müxbirimiz**

Mədəni-maarif · 8 · 2007